**VƏLİ BAXŞƏLİYEV**
AMEA Naxçıvan Bölməsi

## GƏMİQAYA TƏSVİRLƏRİNİN TARİXLƏNDİRİLMƏSİNƏ DAİR

Gəmiqaya abidələrinin tarixləndirilməsi Azərbaycan arxeologiyasının aktual məsələlərindən biridir. Gəmiqaya abidələrinin tarixləndirilməsi yerli arxeoloji mədəniyyətlərin inkişaf xüsusiyyətlərini və Ön Asiya mədəniyyətinin Cənubi Qafqaza erkən təsirini nəzərə almağı tələb edir. Araşdırmalar e. ə. VI-I minilliklərdə Naxçıvan ərazisinin Cənubi Azərbaycan və Şərqi Anadolu ilə vahid iqtisadi mədəni rayona daxil olduğunu göstərir (6, s. 20-44). Fikrimizcə, Gəmiqaya təsvirlərinin əksəriyyətinin e. ə. IV-II minilliyə aid olması fikri doğrudur (8, s. 65). Bəzi rəsmlərin bənzərlərinə arxeoloji sənət əsərlərində rastlandığından onların nisbi xronologiyasını müəyyən etmək mümkündür.

Kür-Araz keramikası üzərində rastlanan spiral ornament bu baxımdan xüsusilə diqqətəlayiqdir. Bu tip ornament Cənubi Qafqazın, o cümlədən Naxçıvan və Urmiya rayonunun keramikası üzərində təsvir edilmişdir. Bu spiralların bənzərlərinə Gəmiqaya təsvirlərində də rastlanır. Qaranquş yaylağında Dəlibulaqdan cənub tərəfdə iri qaya parçalarının üzərində iki yerdə böyük planda verilmiş spiral təsvirləri vardır (9, şək. 30). Digər təsvirlərlə müqayisədə olduqca kobud işlənən bu təsvirin bəzi qismlərini mamır basmışdır. Rəsmin çəkildiyi daşın üzəri müəyyən aşınmaya məruz qaldığından təsvir güclə seçilir. Bu əlamətlər onu Gəmiqayanın ən qədim rəsmləri sırasına aid etməyə imkan verir. Məlum olduğu kimi spiral təsvirləri Kür-Araz mədəniyyətinin erkən mərhələsindən başlayaraq rastlanır (1, s. 127). Odur ki, bu spiral təsvirlərini e.ə. IV minilliyə aid etmək olar.

Gəmiqaya təsvirləri içərisində qədimliyi ilə seçilən rəsmlərdən biri də quş təsvirləridir. Bu təsvirlər arasında Ordubad əhalisinin "ular kəklik" adlandırdığı quş rəsmləri də vardır (9, s. 48). Bu rəsmlər (9, şəkil 18, 5) təsvir edilmə motivinə görə Kür-Araz mədəniyyətinin son mərhələsinə aid gil qablar üzərindəki təsvirləri xatırladır (14, şəkil 43). Onlar Yanıqtəpədən aşkar edilmiş çölməklər üzərində təsvir edilən quş rəsmləri ilə xüsusilə yaxın bənzərlik təşkil edir (şək. 2). Buna əsaslanaraq Gəmiqayadakı kəklik rəsmlərini e. ə. IV minilliyin sonuna aid etmək olar .



**Şəkil 1.** Gəmiqaya təsvirinin paralelləri: 1-Samarra (e.ə.VI minillik ) Joan Oates. Choga Mami // Fifty Years of Mesopotamian Discovery. London, 1982, p. 26; 2-Şenqavit (e.ə. III minillik) Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. Л., 1970, с. 71; 3-Ahlat (e.ə. II minillik) Aynur Özfırat. Doğu Anadolu Yayla Kültürleri. İstanbul, 2001, levha 88; 4-Gəmiqaya

Quş təsvirləri arasında qədim dövrə aid edilə biləcək rəsmlərdən biri də qaranquş təsviridir. Bu təsvir Dəlibulağın cənub tərəfində yerləşən böyük qaya parçasının üzərində bizim apardığımız araşdırmalar zamanı aşkar olunmuşdur. Bu təsvirin bənzərlərinə Tunc dövrünə aid maddi

mədəniyyət nümunələri üzərində rastlanmamışdır. Lakin təsvirin başdan-başa mamırla örtülməsi onun qədim tarixə malik olduğunu göstərir. Məlum olduğu kimi, xalq arasında qaranquşla bağlı xeyli inanclar vardır. Qaya təsvirlərinin toplandığı əsas bölgənin də Qaranquş yaylağı adlandırılması, bizcə, təsadüfi deyildir. Qaranquş təsviri Gəmiqaya rəsmlərinin ən erkən təsvirlərindən biri hesab edilməlidir. Bu təsviri təqribən e. ə. IV minilliyə aid etmək olar.

Gəmiqayada rastlanan öküz təsvirləri V.H.Əliyev tərəfindən Erkən Tunc dövrünə aid edilmişdir (9, s. 36). Məlum olduğu kimi, öküz kultu Erkən Tunc dövründə Kür-Araz mədəniyyəti tayfaları arasında, xüsusilə, Naxçıvanda geniş yayılmışdır (9, s. 35-36). O.H.Həbibullayevin aşkar etdiyi tapıntılar öküz kultunun Kür-Araz mədəniyyəti tayfaları arasında güclü təsirə malik olduğunu göstərir (1, s. 142). I Kültəpənin Kür-Araz mədəniyyəti təbəqəsindən aşkar olunan çoxsaylı gil öküz fiqurları, habelə öküz fiquruna bənzədilən sitayiş qurğuları da bunu sübut edir. Şübhəsiz ki, öküz kultunun geniş yayılması onunla bağlı təsvirlərin də yaranmasına səbəb olmuşdur.

Gəmiqaya təsvirlərinin böyük bir qrupu keçi təsvirlərindən ibarətdir. Bu təsvirlər arasında buynuzları yuxarıya doğru qaldırılmış keçi təsvirlərinin bənzərlərinə (şək. 1) Yaxın Şərqdə Eneolit dövrünə aid keramika məmulatı üzərində rastlanmışdır (4, şək. IV, 2). Yaxın Şərq keramikasında bu tip keçi təsvirləri başlıca olaraq mifoloji konteksdə verilmişdir. Keçi təsvirlərinin ilanla birlikdə təsvirlərinə xüsusilə tez-tez rastlanır. Gəmiqaya təsvirlərindəki bəzi keçi təsvirlərinin buynuzlarının ilana bənzədilməsi, ehtimal ki, bununla bağlıdır.

Gəmiqaya təsvirlərinin böyük bir qrupu Orta Tunc dövrünə aiddir (2, s. 171-195). Orta Tunc dövründə incəsənətin inkişafı həmçinin yüksək keyfiyyətli boyalı qabların və bədii metal məmulatının da inkişafı ilə təsdiq olunur. Orta Tunc dövrünə aid boyalı qablar üzərindəki təsvirlərin bir qrupu Gəmiqaya təsvirləri ilə bənzərdir (9, s. 61-63). Gəmiqayada rastlanan maral təsvirlərinin bir qrupu Orta Tunc dövrünə aid edilə bilər. Bu təsvirlərin bir qismi Qaranquş yaylağında aşkar olunmuşdur. Buynuzları yuxarıya doğru şaxələnmiş bu tip maral təsvirlərinə Yaycıdan aşkar olunmuş monoxrom boyalı küpə üzərində (2, şək. 27, 2) və Göyçə gölü ətrafında aşkar olunmuş monoxrom boyalı küpə üzərində rastlanmışdır. Bu tip boyalı qablar hazırda e. ə. III minilliyin sonu və II minilliyin əvvəllərinə aid edilir (7, s. 11-13).

Naxçıvanın Orta Tunc dövrünə aid boyalı qabları üzərində at, quş, keçi, cüyür, antilop ilan və fantastik heyvanların təsvirlərinə rastlanır. Bu təsvirlər Gəmiqaya təsvirləri ilə yaxın bənzərlik təşkil edir. Buynuzları yuxarıya qaldırılmış keçi təsvirləri boyalı qablar üzərində və Gəmiqayada tez-tez rastlanmaqdadır. Bu tip təsvirlərin verildiyi ov səhnələrini keçi

təsvirlərinə əsasən Orta Tunc dövrünə aid etmək olar. Fikrimizə görə, Gəmiqayada rastlanan müəyyən kompozisiyada verilmiş sujetli təsvirlərin əksəriyyəti Orta Tunc dövrünün inkişaf etmiş mərhələsi ilə tarixləndirilə bilər. Məlum olduğu kimi, Yaxın Şərq abidələrində sujetli təsvirlərə daha erkən rastlanmışdır. Lakin Naxçıvanda belə təsvirlərə yalnız Orta Tunc dövrü boyalı qabları üzərində rastlanır. Yaycı küpəsi üzərində hərəkət halında verilmiş müxtəlif heyvanların rəsmləri bu tip təsvirlərin erkən nümunəsi hesab edilə bilər. Orta Tunc dövrünə aid mifoloji təsvirlərə yalnız e. ə. II minilliyin ikinci yarısına aid polixrom boyalı parçalar üzərində rastlanmışdır. Şahtaxtıdan aşkar olunan polixrom boyalı küpə, Haftavan-təpənin Son VI B təbəqəsindən aşkar olunmuş polixrom boyalı parçalar və Qaziantep muzeyində saxlanan nümunələr üzərindəki sujetli rəsmlər mifoloji təsvirlər sırasına daxil edilə bilər. Məlum olduğu kimi, bu təsvirlərin aşkar olunduğu boyalı qablar e. ə. II minilliyin ikinci yarısına aid edilir. Belə hesab edirik ki, boyalı qablar üzərində geniş kompozisiyalı mifoloji təsvirlərin meydana gəlməsi cəmiyyətdə sosial ziddiyyətlərin kəskinləşməsi ilə bağlı olmuşdur. Belə ki, qədim dövrdə mifoloji ideologiya cəmiyyətdə tarazlığın saxlanması üçün əsas vasitələrdən biri olmuşdur. Bu dəlillərə əsaslanaraq Gəmiqayanın mifoloji məzmun daşıyan kompozisiyalı təsvirlərinin Orta Tunc dövrünün son mərhələsində çəkildiyini ehtimal etmək olar.

Gəmiqaya təsvirlərindəki bəzi keçi təsvirlərinin buynuzları aypara şəklində geriyə doğru əyilərək quyruğu ilə birləşdirilmişdir. Bu tip keçi təsvirlərinə Xocalı-Gədəbəy keramikası üzərində rastlanmışdır (şək. 2). Xocalı-Gədəbəy keramikası üzərində svastika ilə birlikdə təsvir edilmiş keçi rəsmləri də Gəmiqaya rəsmləri ilə bənzərlik təşkil edir (10, s. 113). Gəmiqaya təsvirlərindən birində buynuzu quyruğuna qədər əyilmiş keçi təsvirləri həyat ağacı ilə birlikdə təsvir edilmişdir. Buradakı keçi təsvirlərinin arasında oğlaq rəsminin verilməsi onların məhsuldarlıqla bağlı olduğunu göstərir. Həyat ağacı yuvarlaq meyvələrlə təsvir edilmişdir. Həyat ağacının yuvarlaq meyvələrlə təsvir edilməsinə Naxçıvandan aşkar olunmuş silindir möhürlər üzərində rastlanmışdır. Bu silindir möhürlərin aşkar olunduğu arxeoloji komplekslər e. ə. II minilliyin ikinci yarısı və I minilliyin əvvəllərinə aid edilir (3, s. 14-18).



**Şəkil 2.** Gəmiqaya təsvirlərinin bənzərləri: 1- Gəncəçay hövzəsi (e.ə. II minillik) М.А.Гусейнова Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа; 2-Muş-Dumlusu (e.ə. II minillik) Aynur Özfirat. Doğu Anadolu Yayla Kültürleri. İstanbul, 2001, levha 85; 3- Yanıq təpə ( e.ə. IV-III minillik) Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. Л., 1970, рис. 36; 4, 5, 6, 7, 8 - Gəmiqaya

Qaya təsvirləri arasında rastlanan heyvanların mübarizəsi səhnəsi xüsusilə diqqətçəkicidir. Məlum olduğu kimi bu tip təsvirlərin erkən nümunələrinə Mesopotamiyanın silindir möhürləri üzərində rastlanmışdır. Lakin, Cənubi Qafqazda və Azərbaycanda bu tip təsvirlər indiyədək rastlanmamışdır. Göyçə gölü hövzəsindən və Yaycıdan aşkar olunan monoxrom boyalı qablar üzərində vəhşi heyvanların dırnaqları təqibetmə səhnəsi təsvir edilmiş, Trialeti və Karaşamb kurqanlarından aşkar olunan

gümüş qablar üzərində vəhşi heyvanların dırnaqlılara hücum səhnəsinə də təsadüf olunmuşdur. Lakin, aktiv mübarizə səhnəsi indiyədək rastlanmamışdır. Həsənlidən aşkar olunan boyalı küpə üzərindəki heyvanların mübarizəsi səhnəsi stilistik baxımdan Gəmiqaya təsvirindən xeyli fərqlidir. Belə hesab edirik ki, Gəmiqaya təsviri ikonoqrafik baxımdan Mesopotamiya nümunələri ilə daha yaxındır. Gəmiqaya təsvirini e. ə. III-II minilliklərə aid etməyi məqsədəuyğun hesab edirik.

Gəmiqaya təsvirləri arasında ardıcıl yerləşdirilmiş heyvan təsvirlərinə də rastlanmışdır. Onların bəzisi ikibaşlı heyvan şəklində verilmişdir. Bu tip təsvirlərə Xocalı-Gədəbəy mədəniyyətinə aid gil qablar üzərində rast gəlinir (10, s. 102, tablo VI). Ümumiyyətlə, ikibaşlı heyvan fiqurları Xocalı-Gədəbəy mədəniyyəti abidələrində geniş yayılmışdır (13, s. 131-134). Üz-üzə, yaxud arxa-arxaya durmuş heyvan təsvirlərinin erkən nümunələri Şumer incəsənətində meydana çıxmışdır (13, s. 138). Cənubi Qafqazda, o cümlədən Azərbaycanda ikibaşlı heyvan təsvirləri, yaxud heyvan fiqurlarının yayılması e. ə. II minilliyin sonu - I minilliyin əvvəllərinə aid edilir. İkibaşlı quş təsvirlərinin erkən nümunələrinin Kür-Araz keramikasında rastlanması Cənubi Qafqazda yayılan bu tip təsvirlərin yerli zəmində meydana gəldiyini göstərir (13, s. 137). Gəmiqaya təsvirlərində rastlanan arxa-arxaya yerləşdirilmiş heyvan təsvirləri ikonoqrafik baxımdan Xocalı-Gədəbəy keramikası üzərindəki təsvirlərdən və bu mədəniyyətə aid tunc fiqurlardan xeyli fərqlənir. Xocalı-Gədəbəy mədəniyyəti abidələrində heyvanların bədənləri birləşik halda, verildiyi halda Gəmiqaya təsvirlərində heyvanlar ayrılıqda təsvir edilmişdir. Fikrimizə görə, Gəmiqayadakı arxa-arxaya yerləşdirilmiş heyvan təsvirləri Xocalı-Gədəbəy mədəniyyətinə aid nümunələrdən xeyli qədimdir. Bu təsvirləri e. ə. II minilliyə aid etmək olar. E. ə. IV - I minilliklərdə yayılan bu tip təsvirlərin və tunc fiqurların ritual məqsədlə hazırlandığı, başlıca olaraq ekizlik kultu və dual təşkilat quruluşu ilə bağlı olduğu tədqiqatçılar tərəfindən qeyd edilmişdir (13, s. 131-145).

Gəmiqaya təsvirlərinin araşdırılması burada müxtəlif dövrlərə aid və müxtəlif xarakterli rəsmlərin olduğunu göstərir. Qaya təsvirlərinin az bir qismi də Orta əsrlərə aiddir. Qaranquş yaylağındakı Orta əsr qəbirləri və bu dövrə aid keramika nümunələri bunu təsdiq edir. Orta əsr rəsmləri qədim rəsmlərdən çəkilmə texnikası ilə fərqlənir. Onlar başlıca olaraq cızma xətlərlə icra edilmiş sadə rəsmlərdən ibarətdir.

Gəmiqaya təsvirlərinin mütləq xronologiyasının müəyyən edilməsi rəsmlərin tipoloji və stillistik baxımdan geniş araşdırılmasını tələb edir. Belə hesab edirik ki, Gəmiqaya təsvirləri araşdırılaraq gələcəkdə daha dəqiq tarixləndiriləcəkdir.

## ƏDƏBİYYAT

1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982, 316 с.
2. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991, 256 с.
3. Aslanov Q., Kashkay S. Cylinder seal from the Nakhcivan district. Early life in Ancient Near East, Poznan, 1989, p. 13-19.
4. Антонова Е.В. Муграбские печати в свете религиозно-мифологических представлений Юга Средней Азии. Средняя Азия и Древний Восток в древности. М., 1983, с.13-31.
5. Baxşəliyev V.B. Gəmiqaya təsvirləri. Bakı, 2003, 165 s.
6. Bahşaliyev V.B. Nahçıvan arkeolojisi // Archaeology of Nakhchivan. İstanbul, 1997, 128 s.
7. Бахшалиев В.Б. К вопросу хронологии расписной керамики из Нахичевани. Результаты I симпозиума археол. и этнограф. Азербайджана. Баку, 1992, с. 10-24.
8. Baxşəliyev V.B. Xornu nekropolu Tunc dövrünün yeni abidəsidir. Naxçıvan Regional Elm Mərkəzinin əsərləri, Bakı, 2003, VII buraxılış, s. 11-12.
9. Əliyev V. Gəmiqaya abidələri. Bakı, 1993, 79 s.
10. Гусейнова М.А. Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа. Баку, 1989,128 с.
11. Museyibov N.Ə. Qobustan və Gəmiqaya təsvirlərində bir qrup işarə haqqında. Azərbaycanın qədim və orta əsr tarixi problemləri. Bakı, 1992, s. 26-27.
12. Çilingiroğlu A. Gaziantep muzesindeki Van-Urmiya boyalıları. Arkeoloji ve Sanat tarihi dergisi, 1990, s. 25-44.
13. Погребова М.Н. Закавказье и его связи с Передней Азией в скифское время. М., 1984, 248 с.
14. Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. М.-Л., 1970, 190 с.


**Вели Бахшалиев**

## О ПЕРИОДИЗАЦИИ ПЕТРОГЛИФОВ ГЕМИКАЯ

Исследование Гемигаинских петроглифов показывает, что в IV-I тысячелетиях до н.э. древняя культура Нахчывана была связана социально-экономическими отношениями со странами Южного Кавказа, Южного Азербайджана и Восточной Анатолии. Параллели Гемигаинских петроглифов известны из памятников эпохи ранней, средней и поздней

бронзы. На основе исследований Гемигаинские петроглифы можно датировать IV-I тысячелетиями до н.э. Возможно, последующие исследования позволят сгруппировать Гемигаинские петроглифы по отдельным периодам.

**Veli Bakhshaliyev**

## ABOUT THE PERIODIZATION OF GEMIKAYA PETROGLYPHS

The investigation of Gemikaya petroglyphs proves that the ancient culture in Nakhchivan of the period of IV-I millenium B.C. was in social-economic relationship with the regions of South Caucasus, South Azerbaijan and Eastern Anatoly. The close parallels of Gemikaya petroglyphs are known from the monuments of the Early, Middle and Late Bronze Ages. On the basis of the investigations it is revealed that the petroglyphs of Gemikaya date from the IV-I millenium B.C. The following investigations will probably allow to classify the petroglyphs of Gemikaya according to separate periods.